# ***ALİ MƏCLİSİN İCLASI***

*14 avqust 2024-cü il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin*
*müavini **Anar İbrahimov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il növbədənkənar sessiyasının ilk iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının bugünkü iclasında mənə protokolun verdiyi məlumata görə 32 deputat iştirak edir.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 32 |
| Yetərsay | 31 |

Bilirsiniz ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə görə 31 deputat parlamentin işində iştirak etdikdə iclas səlahiyyətli sayılır. Buna görə də iclas öz işinə başlamağa səlahiyyətlidir.

İclasa gecikən deputatlardan gələn olduğu halda xahiş edirəm zala buraxasınız.

Bugünkü iclasımızda hökumət üzvləri də iştirak edirlər, onları salamlayıram.

Hörmətli deputatlar,

Naxçıvan Muxtar Respublikası Baş nazirinin 2024-cü il 8 və 12 avqust tarixli müvafiq məktubları ilə “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” və “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Qanun layihələri müzakirəyə çıxarılması üçün Ali Məclisə daxil olmuşdur.

Beləliklə, iclasın gündəliyinə aşağıdakı məsələlər verilir:

1. “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” və “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Qanun layihələri (birinci oxunuş).

2. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının tərkibində dəyişiklik edilməsi.

Deputatlardan gündəliyə əlavəsi olan varsa, xahiş edirəm münasibətini bildirsin.

Yoxdur!

İcazənizlə gündəliyi oxuduğum qaydada səsə qoyuram. Deputat yoldaşlarımdan kim gündəliyin bu qaydada təsdiq olunmasına tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 32 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 32 |
| Nəticə: Qəbul edildi | |

Gündəlikdə duran ilk məsələ "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun layihələrinin birinci oxunuşda müzakirəsidir.

Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti muxtar respublikanın büdcə layihəsini hazırlayıb Ali Məclisə təqdim edir və muxtar respublikanın büdcəsini icra edir.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə uyğun olaraq 2024-cü il 8 avqust tarixində "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Nazirlər Kabineti tərəfindən Ali Məclisə təqdim olunmuşdur.

Muxtar respublikada əmək bazarının inkişafı üçün haqqı ödənilən ictimai işlərin işsizliyə görə sığorta ödənişləri üzrə xərclərin maliyyələşdirilməsi məqsədi ilə əlavə vəsaitə ehtiyacın yaranması və bəzi xərc istiqamətləri üzrə vəsaitin azalması zərurəti yaranmışdır. Buna görə də "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 12 avqust 2024-cü il tarixdə parlamentə daxil olmuşdur.

Layihələr İqtisadi siyasət komitəsinin 13 avqust 2024-cü il tarixli iclasında komitə sədri və üzvlərinin, Ali Məclis və Nazirlər Kabineti Aparatları nümayəndələrinin, eləcə də Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin və Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavininin iştirakı ilə müzakirə olunmuşdur.

Qanun layihələri barədə məlumat vermək və komitənin rəyini bildirmək üçün söz İqtisadi siyasət komitəsinin sədri İsa İsayevə verilir.

Buyurun, İsa müəllim!

**İ.İsayev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Anar müəllim, hörmətli deputatlar, hörmətli sessiya iştirakçıları!

Əvvəlcə hamınızı salamlayıram. Qeyd etmək istəyirəm ki, "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun layihələri ilə bağlı İqtisadi siyasət komitəsinin 13 avqust 2024-cü il tarixdə iclası keçirilmiş, komitənin rəyi hazırlanmışdır. Həmin rəyi diqqətinizə çatdırıram:

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinə daxil olmuş "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar

Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun layihələri Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin 3-cü abzasına və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən hazırlanaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim olunmuşdur.

"Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun layihələri komitə üzvlərinə paylanılmışdır. Komitənin 13 avqust 2024-cü il tarixli iclasında komitənin sədr və üzvlərinin, həmçinin Ali Məclis və Nazirlər Kabineti aparatları nümayəndələrinin, eləcə də Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin və Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavininin iştirakı ilə müzakirə olunmuşdur. Qanun layihələri "Normativ hüququ aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IV QN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənlər və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin İqtisadi siyasət komitəsi qeyd edir ki, qanun layihələri Ali Məclisin müzakirəsinə təqdim oluna bilər.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, İsa müəllim! Sizə və komitə üzvlərinə minnətdarlığımı bildirirəm!

Əlavə olaraq qeyd etmək istəyirəm ki, qanun layihələri Ali Məclisin rəsmi internet saytında yerləşdirilərək ictimai müzakirəyə çıxarılmışdır.

"Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə əlaqədar çıxış üçün söz maliyyə naziri Həsən İsmayılova verilir.

Buyurun, Həsən müəllim!

**H.İsmayılov,** *Naxçıvan Muxtar Respublikasının maliyyə naziri.*

Hörmətli Anar müəllim, hörmətli sessiya iştirakçıları!

Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin icrasında gəlirlərin nəzərdə tutulandan artıq icrası və xərclər üzrə tələb olunan yerdəyişmə və əlavə vəsaitlərin həcmi Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinə yenidən baxılma zərurətini müəyyən edir. 2024-cü ilin birinci yarımilində Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirləri 112,3 milyon manat, xərcləri isə 191,7 milyon manat məbləğində icra edilmişdir.

Naxçıvan Muxtar Respublikasının 2024-cü il dürüstləşdirilmiş büdcəsinin gəlirləri 190 milyon 484 min 816 manat proqnozlaşdırılır ki, bu məbləğ 2024-cü ilin təsdiq olunmuş büdcə gəlirləri ilə müqayisədə 17 milyon 379 min 816 manat və ya 10 faiz çoxdur.

Dürüstləşdirilmiş büdcə üzrə gəlirlərin 174 milyon 15 min manatı və ya 91,4 faizi Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların payına düşür ki, bu məbləğ 2024-cü ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 10 milyon manat və ya 6,1 faiz çox planlaşdırılır.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin xətti ilə gəlirlər üzrə proqnozun 60 min manatı dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların payına düşməklə 2024-cü ilin təsdiq olunmuş büdcəsi ilə eyni səviyyədədir.

Gəlirlər üzrə proqnozun yol vergisi üzrə 12 milyon 816 manatı və ya 6,3 faizi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin xətti ilə daxilolmaların payına düşməklə 2024-cü ilin təsdiq olunmuş büdcə göstərcisi ilə müqayisədə 7 milyon 816 manat və ya 2,4 dəfə artıq nəzərdə tutulmuşdur.

Gəlirlər üzrə proqnozun 700 min manatı və ya 0,4 faizi Naxçıvan Muxtar Respublikasının Ətraf Mühitin Mühafizəsi və Təbii Ehtiyatlardan İstifadə üzrə Dövlət Fondunun daxilolmalarının payına düşür.

2024-cü ildə gəlirlər üzrə proqnozun 3 milyon 709 min manatı və ya 1,9 faizi büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların payına düşür.

2024-cü ildə ayrı-ayrı gəlir növləri üzrə daxilolmalar dürüstləşdirilərək aşağıdakı kimi proqnozlaşdırılır:

-Fiziki şəxslərin gəlir vergisi büdcə daxilolmalarının 22,6 faizini təşkil etməklə 43 milyon manat nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq olunmuş aid gəlir mənbəyi ilə müqayisədə 1 milyon 410 min manat və ya 3,4 faiz çoxdur.

-Hüquqi şəxslərin mənfəət vergisi büdcə daxilolmalarının 6,9 faizini təşkil etməklə 13 milyon 200 min manat nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq olunmuş aid gəlir mənbəyi ilə müqayisədə 5 milyon manat və ya 61 faiz çoxdur.

-Hüquqi şəxslərin torpaq vergisi büdcə daxilolmalarının 0,1 faizini təşkil etməklə 2024-cü ilin təsdiq olunmuş aid gəlir mənbəyi ilə eyni səviyyədə - 300 min manat məbləğində nəzərdə tutulur.

-Hüquqi şəxslərin əmlak vergisi büdcə daxilolmalarının 1,1 faizini təşkil etməklə 2 milyon 100 min manat nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq olunmuş aid gəlir mənbəyi ilə müqayisədə 200 min manat və ya 10,5 faiz çoxdur.

-Əlavə dəyər vergisi büdcə daxilolmalarının 27,6 faizini təşkil etməklə 52 milyon 500 min manat nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq olunmuş aid gəlir mənbəyi ilə müqayisədə 1 milyon 150 min manat və ya 2,2 faiz çoxdur.

-Sadələşdirilmiş vergi büdcə daxilolmalarının 2,4 faizini təşkil etməklə 4 milyon 500 min manat nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq olunmuş aid gəlir mənbəyi ilə müqayisədə 810 min manat və ya 22 faiz çoxdur.

-Aksiz vergisi büdcə daxilolmalarının 26,5 faizini təşkil etməklə 50 milyon 488 min manat nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq olunmuş aid gəlir mənbəsi ilə müqayisədə 1 milyon 280 min manat və ya 2,6 faiz çoxdur.

-Yol vergisi büdcə daxilolmalarının 6,3 faizini təşkil etməklə 12 milyon 816 manat nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq olunmuş aid gəlir mənbəyi ilə müqayisədə 7 milyon 816 manat və ya 2,4 dəfə çoxdur.

-Mədən vergisi büdcə daxilolmalarının 0,7 faizini təşkil etməklə 1 milyon 260 min manat nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq olunmuş aid gəlir mənbəyi ilə müqayisədə 60 min manat və ya 5 faiz çoxdur.

-Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar 2024-cü ilin təsdiq olunmuş aid gəlir mənbəyi ilə eyni səviyyədə - 80 min manat məbləğində nəzərdə tutulur.

-Dövlət rüsumu üzrə daxilolmalar büdcə gəlirlərinin 3,4 faizini təşkil etməklə 6 milyon 427 min manat nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq olunmuş aid gəlir mənbəyi ilə müqayisədə 40 min manat və ya 0,6 faiz çoxdur.

-Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar büdcə gəlirlərinin 1,9 faizini təşkil etməklə 3 milyon 709 min manat nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq olunmuş aid gəlir mənbəyi ilə müqayisədə 321 min manat və ya 8 faiz azdır.

-Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar büdcə gəlirlərinin 0,1 faizini təşkil etməklə 160 min manat nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq olunmuş aid gəlir mənbəyi ilə müqayisədə 50 min manat və ya 45,5 faiz çoxdur.

2024-cü il dürüstləşdirilmiş büdcə gəlirlərinin mərkəzləşdirilmiş gəlirləri 147 milyon 726 min 616 manat, yerli gəlirləri 42 milyon 758 min 200 manat məbləğində proqnozlaşdırılır.

Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə gəlirlər 71 milyon 331 min manat, o cümlədən “Avtomobil Yolları” Məqsədli Büdcə Fonduna aid olan məbləğ 150 min manat, yerli xərclər 49 milyon 142 min 900 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 28 milyon 422 min 800 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 6 milyon 384 min 700 manat məbləğində proqnozlaşdırılır.

Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə gəlir və xərcləri aşağıdakı kimi nəzərdə tutulur:

-Naxçıvan şəhəri üzrə gəlirləri 2024-cü il üçün təsdiq olunmuş göstəricisi ilə müqayisədə 5 milyon manat və ya 13,6 faiz çox - 41 milyon 852 min manat, o cümlədən “Avtomobil Yolları” Məqsədli Büdcə Fonduna daxil olan vəsait 40 min manat, xərcləri 16 milyon 974 min 400 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid olan hissəsi 24 milyon 837 min 600 manat məbləğində nəzərdə tutulur;

-Şərur rayonu üzrə gəlirləri 2024-cü il üçün təsdiq olunmuş göstəricisi ilə müqayisədə 800 min manat və ya 10,4 faiz çox - 8 milyon 499 min manat, o cümlədən “Avtomobil Yolları” Məqsədli Büdcə Fonduna daxil olan vəsait 20 min manat, xərcləri 7 milyon 269 min manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid olan hissəsi 1 milyon 210 min manat məbləğində nəzərdə tutulur;

-Babək rayonu üzrə gəlirləri 2024-cü il üçün təsdiq olunmuş göstəricisi ilə müqayisədə 1 milyon 200 min manat və ya 20,3 faiz çox - 7 milyon 104 min manat, o cümlədən “Avtomobil Yolları” Məqsədli Büdcə Fonduna daxil olan vəsait 40 min manat, xərcləri 5 milyon 105 min 400 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid olan hissəsi 1 milyon 958 min 600 manat məbləğində nəzərdə tutulur;

-Ordubad rayonu üzrə gəlirləri 2024-cü il üçün təsdiq olunmuş göstəricisi ilə müqayisədə 300 min manat və ya 10 faiz çox - 3 milyon 300 min manat, o cümlədən “Avtomobil Yolları” Məqsədli Büdcə Fonduna daxil olan vəsait 10 min manat, xərcləri 5 milyon 293 min 100 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən yerli büdcəyə 2 milyon 3 min 100 manat vəsait ayrılması nəzərdə tutulur;

-Culfa rayonu üzrə gəlirləri 2024-cü il üçün təsdiq olunmuş göstəricisi ilə müqayisədə 400 min manat və ya 12,9 faiz çox – 3 milyon 500 min manat, o cümlədən “Avtomobil Yolları” Məqsədli Büdcə Fonduna daxil olan vəsait 20 min manat, xərcləri 5 milyon 132 min 100 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən yerli büdcəyə 1 milyon 652 min 100 manat vəsait ayrılması nəzərdə tutulur;

-Şahbuz rayonu üzrə gəlirləri 2024-cü il üçün təsdiq olunmuş göstəricisi ilə müqayisədə 500 min manat və ya 19,2 faiz çox - 3 milyon 100 min manat, o cümlədən “Avtomobil Yolları” Məqsədli Büdcə Fonduna daxil olan vəsait 12 min manat, xərcləri 4 milyon 299 min 500 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən yerli büdcəyə 1 milyon 211 min 500 manat vəsait ayrılması nəzərdə tutulur;

-Kəngərli rayonu üzrə gəlirləri 2024-cü il üçün təsdiq olunmuş göstəricisi ilə müqayisədə 250 min manat və ya 8,3 faiz çox – 3 milyon 271 min manat, o cümlədən “Avtomobil Yolları” Məqsədli Büdcə Fonduna daxil olan vəsait 7 min manat, xərcləri 2 milyon 847 min

400 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid olan hissəsi 416 min 600 manat məbləğində nəzərdə tutulur;

-Sədərək rayonu üzrə gəlirləri 2024-cü il üçün təsdiq olunmuş göstəricisi ilə müqayisədə 100 min manat və ya 16,5 faiz çox - 705 min manat, o cümlədən "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna daxil olan vəsait min manat, xərcləri 2 milyon 222 min manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən yerli büdcəyə 1 milyon 518 min manat vəsait ayrılması nəzərdə tutulur;

Naxçıvan Muxtar Respublikasının 2024-cü ilin büdcəsinin dürüstləşdirilmiş xərcləri 539 milyon 265 min manat məbləğində proqnozlaşdırılır ki, bu məbləğ cari ilin büdcə xərcləri ilə müqayisədə 22 milyon 900 min manat və ya 4,4 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsində Azərbaycan Respublikasının mərkəzləşdirilmiş xərclərindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya (transfertin yuxarı həddi) məbləğinin 343 milyon 260 min manat məbləğindən 6 milyon 800 min manat və ya 2 faiz azaldılması, 336 milyon 460 min manat müəyyən edilməsi nəzərdə tutulmuşdur.

Təqdim edilən layihədə Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin daxilində məqsədli büdcə fondları üzrə gəlirlər 13 milyon 570 min 816 manat, xərclər isə 25 milyon 891 min manat məbləğində nəzərdə tutulmuşdur. O cümlədən "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu üzrə gəlirlər 12 milyon 870 min 816 manat, xərclər 25 milyon 191 min manat nəzərdə tutulmuş, xərcin gəlirlə əhatə olunmayan hissəsi – bu fond üzrə kəsrin 1 yanvar 2024-cü il tarixə "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun qalığı (12 milyon 320 min 184 manat) hesabına maliyyələşdirilməsi nəzərədə tutulmuş, Naxçıvan Muxtar Respublikası Ətraf Mühitin Mühafizəsi və Təbii Ehtiyatlardan İstifadə üzrə Dövlət Fondunun üzrə vəsaitlərin gəlir və xərclərinin planlaşdırılmasının Naxçıvan Muxtar Respublikasının büdcəsi daxilində aparılması təmin edilmiş, büdcə layihəsində həmin fondun gəlirləri xərclərinə bərabər olmaqla büdcəsi 700 min manat məbləğində nəzərdə tutulmuşdur.

Dürüstləşdirilmiş büdcə xərclərinin 457 milyon 89 min 14 manatı, yaxud 84,8 faizi cari xərclər üzrə, 82 milyon 175 min 986 manatı və ya 15,2 faizi isə əsaslı xərclər üzrə nəzərdə tutulmuşdur.

İqtisadi təsnifata uyğun olaraq 2024-cü ilin dürüstləşdirilmiş büdcəsində əməyin ödənişinə büdcə xərclərinin 59,9 faizi həcmində və ya 322 milyon 825 min 883 manat, malların, iş və xidmətlərin satın alınmasına büdcə xərclərinin 14,3 faizi həcmində və ya 77 milyon 84 min 989 manat, subsidiyaların ödənilməsinə büdcə xərclərinin 4 faizi həcmində və ya 21 milyon 865 min 414 manat, qrantlar və digər ödənişlərə büdcə xərclərinin 5,4 faizi həcmində və ya 29 milyon 58 min 943 manat, sosial ödənişlərə büdcə xərclərinin 1,2 faizi həcmində və ya 6 milyon 253 min 785 manat, qeyri-maliyyə aktivlərinin alınmasına isə büdcə xərclərinin 15,2 faizi həcmində və ya 82 milyon 175 min 986 manat vəsait ayrılması nəzərdə tutulmuşdur.

2024-cü il Naxçıvan Muxtar Respublikasının dürüstləşdirilmiş büdcəsində sosialyönlü xərclərin xüsusi çəkisi 63,2 faiz səviyyəsində, yəni 340 milyon 653 min 55 manat məbləğində nəzərdə tutulur.

Cari ildə büdcə xərcləri dürüstləşdirilərək funksional təsnifat üzrə aşağıdakı kimi proqnozlaşdırılır:

-Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti köməkçi bölməsi üzrə büdcə xərclərinin 14,2 faizi həcmində 76 milyon 344 min 24 manat vəsait ayrılması nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq edilmiş aid xərc istiqaməti ilə müqayisədə 4 milyon 587 min 156 manat və ya 6,4 faiz çoxdur;

-Elm köməkçi bölməsi üzrə büdcə xərclərinin 0,7 faizi həcmində 3 milyon 680 min 706 manat vəsait proqnozlaşdırılır ki, bu, 2024-cü ilin təsdiq edilmiş aid xərc istiqaməti ilə müqayisədə 537 min 200 manat və ya 17,1 faiz çoxdur;

-Seçkilərin keçirilməsi və statistika köməkçi bölməsi üzrə büdcə xərclərinin 0,2 faizi həcmində 1 milyon 81 min 523 manat vəsait proqnozlaşdırılmışdır.

-Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq bölməsi üzrə büdcə xərclərinin 16,7 faizi həcmində 90 milyon 27 min 995 manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq edilmiş aid xərc istiqaməti ilə müqayisədə 1 milyon 352 min 270 manat və ya 1,5 faiz çoxdur;

-Təhsil bölməsi üzrə büdcə xərclərinin 29,7 faizi həcmində 160 milyon 76 min 586 manat vəsait proqnozlaşdırılır ki, bu, 2024-cü ilin təsdiq edilmiş aid xərc istiqaməti ilə müqayisədə 0,5 faiz və ya 754 min 600 manat azdır;

-Səhiyyə bölməsi üzrə büdcə xərclərinin 2,3 faizi həcmində 12 milyon 534 min 897 manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq edilmiş aid xərc istiqaməti ilə müqayisədə 5 faiz və ya 597 min 554 manat çoxdur;

-Sosial müdafiə və sosial təminat bölməsi üzrə büdcə xərclərinin 1,8 faizi həcmində 9 milyon 699 min 431 manat vəsait proqnozlaşdırılır ki, bu 2024-cü ilin təsdiq edilmiş aid xərc istiqaməti ilə müqayisədə 563 min 205 manat və ya 6,2 faiz çoxdur;

-Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət bölməsi üzrə büdcə xərclərinin 4,9 faizi həcmində 26 milyon 242 min 93 manat vəsait ayrılması nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq edilmiş aid xərc istiqaməti ilə müqayisədə 441 min 238 manat və ya 1,7 faiz çoxdur;

-Mənzil və kommunal təsərrüfatı bölməsi üzrə büdcə xərclərinin 3 faizi həcmində 16 milyon 308 min 880 manat vəsait proqnozlaşdırılır ki, bu, 2024-cü ilin təsdiq edilmiş aid xərc istiqaməti ilə müqayisədə 2 milyon 323 min 640 manat və ya 12,5 faiz azdır;

-Kənd təsərrüfatı bölməsi üzrə büdcə xərclərinin 8 faizi həcmində 43 milyon 475 min 195 manat vəsait ayrılması nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq edilmiş aid xərc istiqaməti ilə müqayisədə 3 milyon 655 min 756 manat və ya 7,8 faiz azdır;

-Ətraf mühitin mühafizəsi bölməsi üzrə büdcə xərclərinin 2,7 faizi həcmində 14 milyon 585 min 463 manat vəsait proqnozlaşdırılır ki, bu, 2024-cü ilin təsdiq edilmiş aid xərc istiqaməti ilə müqayisədə 951 min 282 manat və ya 6,1 faiz azdır;

-İqtisadi fəaliyyət bölməsi üzrə büdcə xərclərinin 8,9 faizi həcmində 47 milyon 936 min 223 manat vəsait proqnozlaşdırılır ki, bu, 2024-cü ilin təsdiq edilmiş aid xərc istiqaməti ilə müqayisədə 11,4 faiz və ya 6 milyon 139 min 363 manat azdır;

-Əsas bölmələrə aid edilməyən xidmətlər bölməsi üzrə büdcə xərclərinin 6,9 faizi həcmində 37 milyon 271 min 984 manat vəsait ayrılması nəzərdə tutulur ki, bu, 2024-cü ilin təsdiq edilmiş aid xərc istiqaməti ilə müqayisədə 27 milyon 564 min 495 manat və ya 3,8 dəfə çoxdur.

Diqqətinizə görə təşəkkür edirəm.

Sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, Həsən müəllim!

Qanun layihəsinin müzakirəsinə başlayırıq. Deputat yoldaşlarıma müraciət edirəm, kimin qanun layihəsi ilə bağlı sualı və yaxud çıxışı var?

Yoxdur!

Əslində Həsən müəllimlə bu haqda danışmışıq, sadəcə Həsən müəllimin çıxışından sonra məndə bir sual yarandı, elə yerində onu aydınlaşdırmaq yaxşı olar, çünki biz təkcə özümüz üçün bu məlumatı vermirik, həm də ictimaiyyət üçün maraqlıdır. Bizim 2024-cü il büdcəmizin gəlirlər istiqaməti Həsən müəllimin qeyd etdiyi kimi 173 milyon 105 min manat təsdiq olunmuşdur. Dürüstləşdirilmiş büdcə gəlirləri indi 190 milyon 484 min 816 manata çatdırılacaq, sualım belədir ki, yəni bu artımın içərisində 12 milyon manat dediyiniz "Avtomobil Yolları" Məqsədli Büdcə Fondundakı vəsait də bura daxildirmi?

**H.İsmayılov,** *Naxçıvan Muxtar Respublikasının maliyyə naziri.*

Xeyr! Onunla birlikdə bizim gəlirlərimiz əslində 202 milyon manatdır.

Bəli, o 190 milyon manatın kəsr yaranan hissəsi elə o 12 milyon manatdır.

**Sədrlik edən.** Aydındır! Çox sağ olun!

Bilirsiniz ki, Ali Məclisin rəhbərliyi komitələrdə təmsil olunmur və mən də komitədə təmsil olunmadığıma görə imkan yaranmamışdı ki, bu fikri bildirim. Qanunun 1-ci maddəsiylə bağlı bizim dəqiqləşməyə ehtiyacımız olduğunu müzakirə etdik. Maliyyə naziri ilə bu haqda geniş söhbətimiz oldu.

Hörmətli deputatlar, qanunun 1-ci maddəsində göstərilib ki, xərclər 539 min 265 manat, gəlir və xərcləri tənzimləmək üçün mərkəzi büdcədən ayrılan dotasiyamız 336 min 460 min manatdır. Büdcənin gəlirləri isə 190 milyon 484 min 816 manatdır. Ona görə də indi mən dəqiqləşdirici sual da verdim. Faktiki görünür ki, büdcə kəsrlə təsdiq olunur, yəni 12 milyon 320 min 184 manat vəsait kəsr var. Bu, texniki kəsrdir. Biz bilirik bu kəsr haradadır və necə maliyyələşəcək, lakin fəaliyyətimizdə mütləq qanuna istinad etməliyik, necə ki, etmişik. Əsas da bu sahədə qanunvericilik "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunudur. Orada bilirsiniz ki, büdcə kəsrinin defisiti haqqında sırf müddəa var, yəni büdcə xərclərinin gəlirlərlə təmin olunmayan məbləği, büdcə kəsri texniki olaraq "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.8-ci maddəsində elə hesablanır. Yenə deyirəm bu, texniki bir məsələdir, amma yaxşı olar ki, bunu mütləq qanun layihəsində nəzərə alaq. Ona görə deputat yoldaşlarım etiraz etmirsə, fürsətdən istifadə edərək qanun layihəsinin 7-1-ci maddəsinə dəyişiklik təklif edirəm. Dünən bu dəyişikliyi Həsən müəllimlə razılaşdırmışıq. Hesab edirəm ki, bu, daha yaxşı və qanunauyğun olar. Həm əvvəlki variantı, həm də dəyişiklik təklif olunan variantı diqqətinizə çatdırıram:

Hazırki variantda yazılıb ki, qanunun 7-1-ci maddəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun kəsri 12 milyon 320 min 184 manat məbləğində müəyyən edilsin və həmin kəsrin bağlanması "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun 2024-cü il yanvar ayının 1-nə olan həmin məbləğdə vəsaitin qalığı hesabına təmin edilsin. Təklif edirəm ki, bu maddə aşağıdakı redaksiyada verilsin:

Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin (o cümlədən "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun) kəsri 12 milyon 320 min 184 manat məbləğində təsdiq edilsin, həmin kəsrin bağlanması "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun 2024-cü il yanvar ayının 1-nə olan həmin məbləğdə olan vəsait qalığı hesabına təmin edilsin.

Belə redaksiyada verildiyi halda biz "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edirik. Bu təklif texniki təklifdir, bunu biz qaytarmalıyıq komitədə müzakirə olunmalıdır, hökumətlə də razılaşma tələb edir, çünki bu layihəni hökumət verib. Qanunun ikinci və üçüncü oxunuşlarında nəzərə alınmasına etiraz etmirsinizsə, belə bir təklif edək. Maliyyə nazirinin etirazı yoxdur?

**H.İsmayılov,** *Naxçıvan Muxtar Respublikasının maliyyə naziri.*

Xeyr!

**Sədrlik edən.** Etiraz yoxdursa, redaksiyada dəyişiklik edib, bu cür verək.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilib, söylənilmiş təklif və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilir. Yəni, biz indi qanunun konsepsiyasını qəbul edirik. Ona görə icazə verirsinizsə, qanun layihəsini və təklif etdiyim maddəni də birlikdə səsə qoyum.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar

Respublikasının Qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 11.29 dəq.) |
|---|---|
| Lehinə | 32 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 32 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli deputatlar!

“İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə əlaqədar çıxış etməsi üçün söz Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Fərid Bağırzadəyə verilir.

Buyurun, Fərid müəllim!

**F.Bağırzadə,** *Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən.*

Hörmətli Anar müəllim! Hörmətli deputatlar! Hörmətli sessiya iştirakçıları!

Məlum olduğu kimi Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş “2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası” və “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda (bundan sonra - Dövlət Proqramı) nəzərdə tutulan məşğulluq istiqaməti üzrə tədbirlərin həyata keçirilməsi nəticəsində iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə, dinamik iqtisadi inkişafın təmin edilməsinə müsbət təsir göstərir. Regionların sosial-iqtisadi inkişafının təmin edilməsi, əhalinin maddi rifahı və həyat səviyyəsinin daha da yüksəldilməsi, iqtisadiyyatın, xüsusilə qeyri-neft sektorunun inkişafı istiqamətində müvafiq tədbirlər həyata keçirilməkdə, əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə aktiv məşğulluq tədbirləri icra edilməkdə, eyni zamanda yeni iş yerləri, müəssisələr, infrastruktur obyektləri yaradılmaqdadır.

Naxçıvan Muxtar Respublikasında əmək ehtiyatlarından daha səmərəli istifadə etmək və əhalinin məşğulluğunu təmin etmək məqsədilə qəbul edilmiş proqramların icrası çərçivəsində görülən işlər 2024-cü ildə də davam etdirilmiş və qeydə alınan nəticələrdə müsbət dinamika müşahidə olunmuşdur. Cari ilin 1 avqust tarixinə muxtar respublikada həyata keçirilmiş aktiv məşğulluq tədbirləri nəticəsində 674 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunmuşdur ki, bunlardan da 350 nəfərini haqqı ödənilən ictimai işlərə cəlb olunanlar təşkil etmişdir. Eyni zamanda müvafiq dövr ərzində muxtar respublikada işsiz və işaxtaran vətəndaşların peşə hazırlığı, yenidən hazırlıq kurslarının təşkili diqqət mərkəzində saxlanılmış, bu kurslara, ümumilikdə, 90 nəfər cəlb edilmişdir.

Dövlət Proqramının müvafiq bəndinə uyğun olaraq peşə təhsilinin inkişaf etdirilməsi ilə bağlı layihə təklifləri hazırlanmış, peşə kurslarının təşkili zamanı əmək bazarının təhlili üzrə əldə edilmiş nəticələr əsasında işsiz və işaxtaranların fərdi sahibkarlıq imkanlarının artırılması əsas hədəflərdən biri olmuşdur. Peşə kurslarının təşkili ilə yanaşı, il ərzində 710 nəfər yuxarı sinif şagirdi ilə peşəyönümünə dair məsləhət xidməti təşkil edilmiş, onlara əmək bazarında ən çox tələb olunan peşə və ixtisaslar haqqında məlumatlar verilmişdir.

Muxtar respublikada ilin əvvəlindən 1 avqust 2024-cü il tarixinədək əməkhaqqının bir hissəsinin İşsizlikdən Sığorta Fondunun vəsaiti hesabına birgə maliyyələşdirilməsi proqramı çərçivəsində 11 işəgötürən ilə 24 vakant yer üzrə müqavilə bağlanmış, 24 nəfər işsiz şəxs işlə təmin olunmuş, 5 şəxs isə müxtəlif səbəblərdən işdən uzaqlaşdırılmışdır. Həmçinin dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, işçilərin sayı və ya ştatların ixtisar edilməsi, habelə əmək müqaviləsinin müddətinin bitməsi nəticəsində əmək münasibətlərinə xitam verilmiş və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada işsiz kimi qeydiyyata alınmış 155 şəxsə işsizlikdən sığorta ödənişi təyin edilmişdir.

Dövlət Proqramının müvafiq bəndində qeyd olunan aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş, habelə sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluğunun təmin olunması istiqamətində sosial layihələrin həyata keçirilməsi məqsədilə regionun xüsusiyyətləri nəzərə alınmaqla özünüməşğulluq proqramı çərçivəsində yeni zərflər müəyyən edilmiş, eyni zamanda sosial cəhətdən həssas kateqoriyadan olan işsiz və işaxtaran şəxslərin özünüməşğulluq proqramına cəlb olunması xüsusi diqqətdə saxlanılmışdır. Proqramın icrası nəticəsində sosial qayğıya ehtiyacı olan ailələrin fərdi təsərrüfatlara sahib olmaları onların dövlət yardımından asılılığının aradan qalxmasına, öz zəhmətləri hesabına ailə gəlirlərini artırmalarına və sahibkarlığa çıxış imkanı qazanmalarına hərtərəfli şərait yaratmışdır. Cari ilin 1 avqust tarixinə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin dəstəyi ilə istehsal-xidmət istiqaməti üzrə 107, kənd təsərrüfatı istiqaməti üzrə isə 638 olmaqla, ümumilikdə, 745 nəfər proqram çərçivəsində əmlaklarla təmin edilmişdir.

Məlumat üçün bildirilir ki, 2024-cü il 1 avqust tarixinə İşsizlikdən Sığorta Fondunun büdcəsinin gəlirləri 2 milyon 355 min 675 manat məbləğində olmuşdur. 2024-cü il 1 avqust tarixinə İşsizlikdən Sığorta Fondunun büdcəsindən "İşsizliyə görə sığorta ödənişləri" üzrə xərclər 256 min 814 manat, "Peşə hazırlığı və əlavə təhsilin təşkili" üzrə xərclər 216 min 739 manat, "Haqqı ödənilən ictimai işlərin təşkili" üzrə xərclər 307 min 375 manat, "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi" üzrə xərclər 38 min 507 manat, "Dövlət Məşğulluq Agentliyinin Aparatının, onun yerli orqanlarının, habelə tabeliyindəki digər qurumların saxlanılması" üzrə xərclər 1 milyon 757 min 844 manat olmaqla, ümumilikdə, İşsizlikdən Sığorta Fondunun büdcəsinin xərcləri 2 milyon 577 min 280 manat təşkil etmişdir.

"İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa (bundan sonra-Qanun) dəyişiklik edilməsi barədə qanun layihəsi (bundan sonra-Layihə) hazırlanmışdır.

Belə ki, cari ilin 7 ayı ərzində daxilolmalarda müşahidə olunan artım nəzərə alınaraq layihədə Qanunun 2.1-ci maddəsi üzrə vəsaitin artırılması, müvafiq olaraq 3.1-ci maddəsində nəzərdə tutulan "İşsizliyə görə sığorta ödənişləri" xərc istiqaməti üzrə dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, işçilərin sayı və ya ştatların ixtisar edilməsi nəticəsində iş yerini itirmiş vətəndaşların müraciətlərinin çoxluğunu nəzərə alaraq vəsaitin artırılması, 3.2-ci maddəsində nəzərdə tutulan "Peşə hazırlığı və əlavə təhsilin təşkili" xərc istiqaməti üzrə əmək bazarının tələbləri nəzərə alınaraq azaldılması, 3.3-cü maddəsində qeyd olunan "Əmək yarmarkalarının təşkili və peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi" xərc istiqaməti üzrə tədbirlər daxili imkanlar hesabına təşkil edildiyindən vəsaitin azaldılması, 3.4-cü maddəsində qeyd olunan "Haqqı ödənilən ictimai işlərin təşkili" xərc istiqaməti üzrə haqqı ödənilən ictimai işlərə cəlb olunmaq üçün müraciət edən vətəndaşların çoxluğu nəzərə alınaraq artırılması, 3.5-ci maddəsində qeyd olunan "Özünüməşğulluq tədbirlərinin təşkili" xərc istiqaməti üzrə cari ildə müraciət edən vətəndaşlardan 1000 (bir min) nəfərinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən əmlaklarla təmin olunacağını nəzərə alaraq azaldılması, 3.6-cı maddəsində qeyd olunan sosial iş yerlərində işçilərin əməkhaqqısının bir hissəsinin maliyyələşdirilməsi xərc istiqaməti üzrə qanunvericilikdə edilmiş son dəyişikliklərə

əsasən proqramın əhatə dairəsinin genişlənməsi nəzərə alınaraq artırılması zərurəti yaranmışdır.

Layihənin nəzərə alınması xahiş olunur.

Diqqətinizə görə təşəkkür edirəm !

**Sədrlik edən.** Ətraflı məlumata görə çox sağ olun, Fərid müəllim!

Qanun layihəsi ilə əlaqədar sualı olan və ya çıxış etmək istəyən varmı?

Yoxdur!

Hörmətli deputatlar, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclis protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir, söylənmiş təklif və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilir.

Təklif və irad olmadı, hesab edirəm ki, bu qanun layihəsini elə olduğu kimi səsə qoyub ikinci və üçüncü oxunuşa müzakirəyə göndərmək olar.

Məsələni səsə qoyuram. Kim qanun layihəsinin birinci oxunuşda lehinə səs verirsə, xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 32 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 32 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Burada bir haşiyə çıxmaq istəyirəm. Bilirsiniz ki, növbədənkənar sessiyada da məsələlərin müzakirəsi üç oxunuş tələb edir, ona görə də indiki vəziyyətdə biz iki iclas da nəzərdə tutmuşuq. İkinci iclası 16 avqust tarixinə planlaşdırmışıq, ona görə deputat həmkarlarımdan xahiş edirəm ki, mümkün olan qədər bunu nəzərə alsınlar və Ali Məclisin işində iştirak etsinlər. Çünki Ali Məclisdə, qeyd etdiyim kimi 31 deputatın iştirakı vacibdir ki, məclis səlahiyyətli olsun. Bunu nəzərə almağınızı xahiş edirəm.

Gündəlikdə duran üçüncü məsələ Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının tərkibində dəyişiklik edilməsi barədədir. Bildiyiniz kimi Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sonuncu tərkibi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2020-ci il 30 dekabr tarixli 12-VI QR nömrəli Qərarı ilə seçilmişdir. 22 iyul 2024-cü ildə keçirilmiş Mərkəzi Seçki Komissiyasının iclasında komissiyanın sədri Əliyev Əjdər Zahid oğlu öz ərizəsi əsasında sədr vəzifəsindən azad edilmişdir. 24 iyul 2024-cü il tarixdə komissiya üzvü Əjdər Əliyev 1 sentyabr 2024-cü il tarixdə Ali Məclisə keçiriləcək seçkilərdə deputatlığa namizədliyini irəli sürmüşdür.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 26.4.4-1-ci maddəsinə əsasən Ali Məclisin deputatlığına namizəd olduqda seçki komissiyası üzvünün səlahiyyətlərinə xitam verilir. Beləliklə, Əliyev Əjdər Zahid oğlu Mərkəzi Seçki Komissiyasının üzvü ola bilməz. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 8-ci bəndinə əsasən Ali Məclis Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin təyin edilməsi məsələsini həll edir. Qeyd olunanları nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd olaraq Orucəliyev Ramil Əli oğlunu təklif edirəm.

Ramil müəllim buradadır. Əyləşin, Ramil müəllim!

İcazənizlə onun haqqında protokol xarakterli olsa da, hamımız Ramil müəllimi tanıyır, amma bununla bağlı məlumatı diqqətinizə çatdırım. Ramil müəllim hazırda Heydər Əliyev Muzeyinin direktorudur. Həmin müəssisəyə 20 ilə yaxındır ki, yüksək səviyyədə rəhbərlik edir. Ramil müəllim 1977-ci ildə Şahbuz rayonunun Mahmudoba kəndində anadan olmuşdur. Evli, ali təhsilldir. Naxçıvan Dövlət Universitetini tarix ixtisası üzrə bitirmişdir. Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında magistr təhsili almışdır. Həm tarix, həm də dövlət və bələdiyyə idarəetməsi ixtisasına yiyələnmişdir. 2018-ci ildə möhtərəm cənab Prezidentin müvafiq sərəncamı ilə Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adı ilə təltif edilmişdir. Bu təqdimatda Ramil müəllimin 2004-2006-cı illərdə Mərkəzi Seçki Komissiyasının Aparatında olan iş təcrübəsi də nəzərə alınıb. Qısaca Ramil müəllim haqqında bunu deyə bilərəm. Deputatlardan Ramil müəllimə sualı, sözü olan varsa, buyurub deyə bilər.

Yoxdur!

Beləliklə, bununla bağlı qərar layihəsi hazırlanmışdır. İcazənizlə qərar layihəsini diqqətinizə çatdırım. Bu qərar həm üzvün azad edilməsi, həm də yeni üzvün təyin edilməsi ilə bağlıdır:

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 8-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

"Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin seçilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2020-ci il 30 dekabr tarixli 12-VI QR nömrəli Qərarında "Əliyev Əjdər Zahid oğlu" sözləri "Orucəliyev Ramil Əli oğlu" sözləri ilə əvəz edilsin.

Qərarın oxunan qaydada qəbul olmasına deputat həmkarlarından kim tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 32 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 32 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, qərar qəbul edildi. Ramil müəllim Mərkəzi Seçki Komissiyasının üzvü seçildi. Fəaliyyətinizdə uğurlar arzulayıram.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının ilk iclası öz işini başa çatdırır.

Sağ olun!